

Azərbaycan qadınlarının «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2



Prezident İlham Əliyev yeni alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub

2



Nazirlər Kabinetinin bir sıra qərarlarına dəyişikliklər edildi

5


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 05-06 (789) 29 mart 2024-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezidentlər Füzuli MRX-nın layihəsi ilə tanış olublar



2

## «Parçalanmış dünyanın bərpası» mövzusunda XI Qlobal Bakı Forumu keçirilib



3

## Səhiyyə komitəsi yeni qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə edib



7

## «Hər kəs üçün sağlamlıq»

Səhiyyə naziri XI Qlobal Bakı Forumunun bu mövzuda panel iclasında çıxış edib




9






### *Aforizm*

*Təkcə bir müəllimin — təbiətin sözünü dinlə.*

*Rembrandt*

# Prezident İlham Əliyev ÜST-nin Baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesusu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Tedros Gebreyesus İlham Əliyevi Prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbrik edib.

Qonaq Ümumdünya Səhiyyə Təşkilatı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıqdan məmnunluğunu dilə gətirib, bu mərkəzin onun rəhbərlik etdiyi təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi yüksək qiymətləndirib və Mərkəzin İdarə Heyətinin üzvləri ilə mütəmadi olaraq li yollarının tapılması baxımından əhəmiyyətli platformalardan biri olduğunu qeyd edib.

Ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarının təqdirəlayiq olduğunu deyən Tedros Gebreyesus Azərbaycanda yaradılan icbari tibbi sığorta sisteminin müsbət proses olduğunu və onun yaxşı nəticələrinin ar-



Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Görüşdə XI Qlobal Bakı Forumunun əhəmiyyəti qeyd edilib, Tedros Adhanom Gebreyesusun bu tədbirdə iştirakının önəmi vurğulanıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq aləmdə nüfuzunun artdığı bildirilib və bu forumda xeyli sayda qonağın iştirakı bunun yaxşı göstəricisi kimi dəyərləndirilib.

görüşlər keçirdiyini qeyd edib.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq statuslu qeyri-hökumət təşkilatı olaraq müstəqil şəkildə fəaliyyət göstərdiyini və ölkəmizin də bu təşkilatın işinə dəstək verdiyini vurğulayıb. Dövlət başçısı hər il Bakının ev sahibliyi ilə keçirilən Qlobal Forumun beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi və onların həl-tıq özünü göstərdiyini söyləyib.

Görüşdə COP çərçivəsində Azərbaycan ilə ÜST arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. İqlim dəyişmələrinin dünyada müxtəlif növ xəstəliklərin yayılmasına rəvac verdiyini və bilavasitə səhiyyə ilə bağlı olduğunu vurğulayan ÜST Baş direktoru bu sahədə də Azərbaycan ilə əməkdaşlıq məsələlərinə toxunub.

# Prezident İlham Əliyev yeni alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev təxliyə zamanı həyati təhlükəsi olanlara təcili tibbi yardım göstərməyə imkan yaradan yeni ambulanslar barədə dövlət başçısına məlumat verib.

Bildirilib ki, ambulansların alınmasında məqsəd əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin keyfiyyətini yaxşılaşdırmaqdır. Qeyd olunub ki, İtaliyanın «Iveco Daily 35S15E4» markalı 100 ədəd təcili tibbi yardım avtomobilindən 66-sı sadə diferensiallı, 3-ü psixiatrik, 20-si reanimobil, 1-i portativ rentgen aparatlı və 10-u perinatal küvezlidir.

Avtomobillər xəstə səhiyyə müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən ən müasir tibbi avadanlıqlarla təmin edilib ki, bu da ən ağır vəziyyətdə olan pasiyentlərin təhlükəsiz daşınmasına imkan verir.

Perinatal küvezli təcili yardım avtomobilləri patoloji yenidoğulmuşların tibb müəssisələrində göstərilməsi mümkün olmayan tibbi xidmətləri almaları məqsədilə müvafiq perinatal mərkəzlərə çatdırılması üçün nəzərdə tutulub.

Müxtəlif psixi pozuntulardan əziyyət çəkən xəstələrin daşınması üçün nəzərdə tutulan təcili tibbi yardım avtomobillərində xüsusi arakəsmələr quraşdırılıb.

Bütün avtomobillər qatlanıb-açılan xərək, onurğa taxtası, boyun şinası və ilkin tibbi yardımın göstərilməsi üçün zəruri cihaz və avadanlıqlarla təchiz olunub. Ambulansların təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icrasına imkan verir. Nəqliyyat vasitələri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir.

Zaur Əliyev bildirib ki, icbari tibbi sığortanın tətbiqindən sonra ümumilikdə 349 ambulans alınıb. Qeyd olunub ki, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər bundan sonra da davam etdiriləcək.

Qeyd edilib ki, avtomobillərin bölgüsü Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən «Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması» normalarına əsasən aparılacaq.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının (MRX) layihəsi ilə tanış olublar.**

AZƏRTAC-ın bildirdiyinə görə, səhiyyə naziri Teymur Musayev dövlət başçılarına xəstəxanada yaradılacaq şərait barədə məlumat verib.

# Prezidentlər Füzuli MRX-nın layihəsi ilə tanış olublar

Bildirilib ki, Baş plan layihəsinə əsasən, 180 çarpayılıq yeni xəstəxana 4,5 hektar ərazidə inşa olunacaq. Xəstəxananın inşasında Qazaxıstanın «BI Group» və bir sıra Azərbaycan şirkətləri iştirak edəcək. Bu tibb ocağında inzibati bina, qəbul, terapiya, kardiologiya, nevrologiya, cərrahiyyə, travmatologiya-ortopediya, oftalmologiya, otorinolarinqologiya, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa diaqnostikası, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq. Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək.

Diqqətə çatdırılıb ki, xəstəxana ilə yanaşı, eyni ərazidə Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Yardım Stansiyası və Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi də inşa ediləcək.

Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

# Azərbaycan qadınlarının «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, 8 Mart — Beynəlxalq Qadınlar Günü münasibətilə qərara alıram:

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər «Tərəqqi» medalı ilə təltif edilsinlər:

Atamoğlanova Natəvan Dəmirçi qızı
Behbudova Gülşən Behbud qızı
Əhmədova Kəhlik Talış qızı
Əliyeva Gültəkin Budaq qızı
Haqverdiyeva Sevda Haqverdi qızı
Həsənova İlhamə Hüseyn qızı
Hüseynova Mariya Pavlovna
Hüseynova Reyhan Kamranovna
Hüseynova Zərifə Bəşir qızı
Mehrəliyeva Sevil Əli qızı
Məsimova Taliyə Fəxrəddin qızı
Ramazanova Bədyalcamal Süleyman qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 mart 2024-cü il.*

# «Parçalanmış dünyanın bərpası» mövzusunda XI Qlobal Bakı Forumu keçirilib

## *Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib*

**Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə «Parçalanmış dünyanın bərpası» mövzusunda XI Qlobal Bakı Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

XI Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin deyib ki, hazırda dünya, həqiqətən də, parçalanıb, təhlükənin hökm sürdüyü dövr yaşanır: «Dünyanı bürümüş pandemiyadan yenicə çıxdığımız dövrdə növbəti belə hadisəyə hazır olmaq üçün heç bir dərs götürmədik. Qlobal çağırışlar qlobal cavab tədbirləri tələb edir. Lakin biz, eyni zamanda, elm, texnologiya və innovasiya sahələrində inanılmaz inqilabın astanasındayıq. Süni zəka hazırda hər şeyə təsir göstərir. O, bütün sahələrdə innovasiya tempini sürətləndirir və bütün növ mürəkkəb problemlərin həllinə yardım edir. İKT inqilabı yeni biologiya sahəsində yeni inqilabla müşayiət olunur. Elmə, texnologiyaya, innovasiyaya yönələn yeniləşmə prosesi elmin perspektivlərini qavramağa, konkret olaraq xəstəliklərin müalicəsi, aclığa qarşı mübarizə, təbiətə ahəngdar olacaq inkişafımızın yenidən müəyyən edilməsi... kimi məsələləri anlamağa yardım edir. Biz həmin eyni texnologiyaların təkcə dağıdıcı və məhvedici tərəflərinə diqqət yetirməli deyilik».

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** açılış mərasimində çıxış edib.

Qonaqları salamlayan dövlət başçısı Forumun əhəmiyyətini vurğulayıb, burada gedən müzakirələrin müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verdiyini deyib. XI Forumda 68 ölkədən 400-dən çox qonağın iştirak etdiyini və tədbirin nəhəng intellektual potensiala malik olduğunu söyləyib.

Son 3-4 il ərzində ölkəmizdə baş verənlərə — Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunmasına toxunan Prezident İlham Əliyev bildirib ki, bu, lokal xarakterli kimi görünsə də, əslində, çox ciddi geosiyasi dəyişiklikdir, bütün dünyada həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək və beynəlxalq hüququn aliliyi prinsipi tətbiq olunmaqla, münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər.

Dövlət başçısı Azərbaycanın öz suverenliyini bərpa etməsinə beynəlxalq ictimaiyyətin reaksiyasından və bəzi qeyri-adekvat münasibətlərdən danışıb.

COP29 mövzusu üzərində xüsusi dayanan Azərbaycan Prezidenti tədbirin hazırlıq işləri və keçirilməsi zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Azərbaycanın fəal tərəfdaşı olacağına əminliyini ifadə edib: «COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir. ...Bizim niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir. Artıq yaşıl keçidlə bağlı bütün gördüyümüz işlərin praktiki nəticələri var... Beləliklə, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər».

Çıxışının sonunda Prezident İlham Əliyev iştirakçılara, xüsusilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib, Foruma uğurlar arzulayıb.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çıxış edərək hazırkı dünya düzəni, yaşadığımız parçalanmış dünyanı yaxşılaşdırmaq üçün problemlərin Bakı forumunda müzakirəsi ilə bağlı fikirlərini bölüşüb.

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırım** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim edib.

Daha sonra Albaniya Respublikasının Prezidenti **Bayram Beqay**, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü **Jelka Tsviyanoviç** Forumun dünyada anlaşmaya töhfələrindən danışıb, onun işinə uğurlar arzulayıblar.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru **Tedros Adhanom Gebreyesus** öz çıxışında uzun illər ÜST-yə və onun məramına dəstək vermiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və Azərbaycana təşəkkürünü ifadə edərək bildirib: «Çıxışıma Prezident İlham Əliyevin göstərdiyi səyləri alqışlamaqla başlamaq istəyirəm. Mən 3300-dən artıq tibbi xidməti əhatə edən icbari tibbi sığorta vasitəsilə universal səhiyyə paketinə doğru Azərbaycanın əldə etdiyi irəliləyişdən məmnunam. Həmçinin Azərbaycan hökumətinə və xalqına təşəkkürümü bildirirəm ki, bu ilin sonunda COP29-a ev sahibliyi məsələsində siz öz rəhbərlik keyfiyyətlərinizi göstərdiniz.

Ümumdünya Səhiyyə Təşkilatı COP28-in tam bir gününü ilk dəfə səhiyyəyə həsr etmiş Birləşmiş Ərəb Əmirliklərinin ənənələrinə uyğun olaraq, COP29-un gündəliyində səhiyyənin mühüm yerdə qalmasını təmin etmək üçün Azərbaycanın sədrliyi ilə işləməyi səmimiyyətlə arzulayır».

BMT Baş katibinin siyasət üzrə müavini **Qay Rayder** COP29-un uğurla təşkil olunması istiqamətində Azərbaycanda görülən işləri yüksək dəyərləndirdiyini qeyd edib.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə iştirakçıları «Parçalanmış dünyanın bərpası» adlı mühüm mövzu ətrafında topladığına görə təşəkkürünü bildirib. Qeyd edib ki, Nizami Gəncəvi «körpü salan» şair idi, öz yaradıcılığı ilə digər mədəniyyətlərə hörmətlə yanaşmağı təşviq edirdi. O inanırdı ki, qonşular və dostlar yaxındır.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Hərəkatın beynəlxalq arenada nüfuzunun artmasında ölkəmizin rolunu xüsusi vurğulayan BMT Baş katibinin müavini deyib: «Mən bu fürsətdən istifadə edərək Zati-aliləri Prezident Əliyevə Qoşulmama Hərəkatına canlandırma gətirdiyinə görə təşəkkürümü bildirirəm. Mən Prezidentin bununla bağlı planlarını və islahatlarını alqışlayıram. O, Qoşulmama Hərəkatında bunu etdi. BMT-nin QİÇS-ə qarşı olan təşkilatı əslində sədrliyin göstərdiyi səyləri yüksək dəyərləndirdi ki, qadınlar da Qoşulmama Hərəkatında xüsusi yer tutsunlar. Bizim təşkilatımız Azərbaycan hökumətinin ev sahibliyi etdiyi «Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması» mövzusunda beynəlxalq konfransa dəstək verdi. Həmin konfransda Bakı Bəyannaməsi qəbul edildi. Bu sənəddə qadınların dayanıqlı inkişafdakı xüsusi rolu qeyd olundu və o, Qoşulmama Hərəkatının bürosu tərəfindən qəbul edildi».

Forumun əhəmiyyətinə toxunan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos** təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Qlobal Bakı Forumunun artıq ənənəyə çevrildiyini söyləyən Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırım** iyul ayında Azərbaycanın Şuşa şəhərində təmsil etdiyi qurumun qeyri-rəsmi sammitinin keçiriləcəyini bildirib: «Şuşa Türk dünyası üçün mühüm məkandır. Mədəni sahədə əməkdaşlıq təşkilatımız daxilində sülhün və sabitliyin təşviq olunmasına yönələcək».

COP29 kimi mötəbər tədbirin Bakıda keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edən və bu tədbirin iqlim dəyişiklikləri ilə bağlı müzakirələrə yeni nəfəs gətirəcəyini diqqətə çatdıran Birləşmiş Krallığın Azərbaycandakı səfiri **Ferqus Auld** Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Forum iştirakçılarına məktubunu oxuyub.

Qeyd edək ki, bu dəfə «Parçalanmış dünyanın bərpası» («Fixing The Fractured World») mövzusuna həsr olunan XI Qlobal Bakı Forumunda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılıb, yeni dünya nizamına təhdid yaradan amillərə, parçalanmış dünyada dayanıqlılığın qurulmasına nəzər salınıb, qarşıda duran çağırışların həlli yolları müzakirə olunub.

Forum öz işini panel iclaslarla davam etdirib.




**«Qlobal çağırışlara qarşı davamlılığı artırmaq: Qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə baxış»** mövzusunda panel iclasında Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibinin müavini **Tomas Lamanauskas** səhiyyə və sənaye sektorlarının vacibliyini qeyd edib. Bildirib ki, müharibə dağıntılarının fəsadlarının qarşısını almaq üçün çalışmaq lazımdır. O, problemlərlə mübarizədə müqavimətin dayanıqlı olmasının əhəmiyyətindən bəhs edərək deyib: «COVID zamanı keçirdiyimiz şoklardan nəticələr çıxarmalıyıq. Bunların yenidən təkrarlanmaması üçün tədbirlərimizi əsirgəməməliyik».

Çex Respublikasının sabiq Baş naziri **Yan Fişer** dünyanın üzləşdiyi yeni çağırışların günbəgün artdığını söyləyib: «Yaşadığımız dünya bir çox mürəkkəblikləri özündə ehtiva edir. Biz postqloballaşan dünyada yaşamaq məcburiyyətindəyik. Özümüzü sanki pandemiyadan çıxmamışıq kimi hiss edirik. Parçalanmaya məruz qalan dünyada problemlərin həllini tapmaq üçün buna uyğun davranmalıyıq».

Beynəlxalq Elm Şurasının baş icraçı direktoru **Salvatore Ariko** pandemiyanın yaratdığı yeni mühitin süni intellektin genişlənməsinə yol açdığını vurğulayıb. Deyib ki, bu da iş yerlərinin dayanıqlılığına təsir göstərdi.

Forumun **«Gənclər danışır, biz dinləyirik»** mövzusuna həsr olunan son panel iclasında gənclərin dünyadakı qlobal problemlərə və onların həllinə baxışları müzakirə edilib. Çıxışlarda həmçinin pandemiyadan və müxtəlif dövrlərdə yayılan epidemiyalardan çıxarılmalı dərslərin, səhiyyə sisteminin növbəti pandemiyaya qədər rəqəmsallaşdırılmasının önəmi vurğulanıb.

Qeyd edək ki, «Parçalanmış dünyanın bərpası» mövzusunda XI Qlobal Bakı Forumunda **«Hər kəs üçün sağlamlıq»** mövzusunda ayrıca panel iclası da keçirilib.

# «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilsin:

«1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 4.9-cu bəndinə uyğun olaraq inteqrasiya həyata keçirilənədək Dərman vasitələrinin dövlət reyestrinin məlumatları dəyişikliklər (dövlət qeydiyyatı müddətinin bitməsi, yenidən dövlət qeydiyyatına alınması, istehsalçının dəyişməsi, istehsal ölkəsinin dəyişməsi, yeni qablaşdırma miqdarı) göstərilməklə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən ayda bir dəfə elektron formada Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinə təqdim edilir.

1-2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə»nin 3.5-ci bəndinə uyğun edilə bilər.».

2. Həmin Qərarla təsdiq edilmiş «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası» üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

«1.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq Dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş dərman vasitələrinin (yalnız ixrac üçün Azərbaycan Respublikasında istehsal edilmiş dərman vasitələri istisna olmaqla) topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra - Şura) tərəfindən tənzimlənir.»;

2.1.2. 1.4-cü bəndə «qiymətlərlə» sözündən əvvəl «həddən yuxarı olmayan» sözləri əlavə edilsin;

2.2. 2.5-ci bənddə «vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər (bundan sonra - istehsalçılar)» sözləri «vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi (bundan sonra - ərizəçi)» sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. adına «qiymətlərinin» sözündən sonra «yuxarı həddinin» sözləri əlavə edilsin;

2.3.2. 3.1-ci bəndin birinci cümləsində «qiyməti» sözü «qiymətinin yuxarı həddi» sözləri ilə əvəz edilsin;

2.3.3. 3.2-ci bənddə «qiyməti» sözü «qiymətinin yuxarı həddi» sözləri ilə, «qiymətinə» sözü «qiymətinin yuxarı həddinə» sözləri ilə əvəz edilsin;

2.3.4. 3.4-cü bəndə «qiymətlərinin» sözündən sonra «yuxarı həddinin» sözləri əlavə edilsin;

2.3.5. 3.5-ci bəndin birinci cümləsində «qiymətləri» sözü «qiymətlərinin yuxarı həddi» sözləri ilə, ikinci cümləsində «qiymətlərlə» sözü «qiymətlərin yuxarı hədlərindən yüksək olmamaqla» sözləri ilə əvəz edilsin;

2.3.6. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

«3.6. Tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitəsinin yalnız topdansatış qiymətinin yuxarı həddi təsdiq edilir.»;

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

«4.1. Dərman vasitələri dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçilər tərəfindən qiymət tənzimlənməsi üçün Şuraya müraciət edilir. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Katiblik tərəfindən həyata keçirilir.»;

2.4.2. 4.2-ci bəndin birinci və ikinci cümlələrində «İstehsalçılar» sözü «Ərizəçilər» sözü ilə əvəz edilsin;

2.4.3. 4.3.1-ci yarımbənddə «Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması haqqında sənədin (qeydiyyat vəsiqəsinin)» sözləri «dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin» sözləri ilə əvəz edilsin;

2.4.4. 4.3.2-ci yarımbənd ləğv edilsin;

2.4.5. 4.3.3-cü yarımbənddə «həmin ölkələr üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən Azərbaycan dilinə rəsmi tərcüməsi təsdiq edilən qiymət sənədləri» sözləri «Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilən sənədlər» sözləri ilə əvəz edilsin;

2.4.6. 4.3.5-ci yarımbənddən «notariat qaydasında təsdiq edilmiş» sözləri çıxarılsın;

2.4.7. 4.5-ci və 4.6-cı bəndlərdə «istehsalçıya» sözü «ərizəçiyə» sözü ilə əvəz edilsin;

2.4.8. 4.7-ci bəndin birinci cümləsində «istehsalçının» sözü «ərizəçinin» sözü ilə əvəz edilsin;

2.4.9. 4.9-cu, 4.11-ci və 4.12-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

«4.9. Dərman vasitələri dövlət reyestrinin Şuranın informasiya sistemi ilə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları»nın 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

4.11. Bu Qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla, dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçi tərəfindən qiymət tənzimlənməsi üçün müraciət edilmədiyi halda, Şura tərəfindən istinad ölkələri, habelə açıq informasiya mənbələri olan ölkələr üzrə məlumatlar əsasında araşdırma aparılmaqla, bazis qiymət müəyyən edilərək qiymət tənzimlənməsi həyata keçirilir.

4.12. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 4.11-ci maddəsinin ikinci cümləsində qeyd olunan dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi dərman vasitələrinin istehsalçısı tərəfindən Şuraya müraciət edildikdə həyata keçirilir.»;

2.5. 5-ci hissə üzrə:

2.5.1. 5.1-ci bəndə «üzrə» sözündən sonra «istehsal ölkəsi nəzərə alınmaqla» sözləri əlavə edilsin;

2.5.2. 5.2-ci bəndin birinci cümləsinə «rübdə» sözündən sonra «azı» sözü əlavə edilsin;

2.5.3. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

«5.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dərman vasitələri haqqında verilən məlumatlarda Şura tərəfindən təsdiq edilmiş qiymətlər əks olunur.»;

2.5.4. 5.6-cı bənddə «istehsalçılar» sözü «ərizəçilər» sözü ilə, «Katibliyə yenidən bəyannamə təqdim» sözləri «Şuraya yenidən müraciət» sözləri ilə əvəz edilsin;

2.5.5. 5.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

«5.8. Aşağıdakı dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin müəyyənləşdirilməsi bu Qaydanın 5.9 - 5.13-cü bəndlərinə uyğun olaraq həyata keçirilir:

5.8.1. əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələri;

5.8.2. resept olmadan buraxılan dərman vasitələri.»;

2.5.6. aşağıdakı məzmunda 5.9 - 5.14-cü bəndlər əlavə edilsin:

5.9. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən həyata keçirilir.

5.10. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsasən həyata keçirilir.

5.11. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Şura tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin rəyləri alınır.

5.12. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən dərman vasitəsinin bazis qiymətinə onun 10 faizi və nəzarət markasının qiyməti əlavə olunmaqla həyata keçirilir.

5.13. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq həyata keçirilir.

5.14. Ərizəçilərin əsaslandırılmış müraciətinə əsasən tənzimlənmiş qiymətlərdə texniki xətalarla bağlı Şura tərəfindən düzəlişlər edilir. Bu düzəlişlər dərman vasitəsinin qiymətinin yenidən tənzimlənməsi hesab edilmir.»;

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci bənddə «üzərində dövlət tərəfindən tənzimlənmiş qiymətlər» sözləri «qablaşdırılmasının üzərində Şura tərəfindən təsdiq edilmiş yuxarı həddən yüksək olmamaqla, pərakəndə satış qiymətləri» sözləri ilə əvəz edilsin;

2.6.2. 6.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

«6.2. Dərman vasitələrinin qablaşdırılmasının üzərində pərakəndə satış qiymətlərinin göstərilməsi aptek təşkilatları tərəfindən təmin edilir. Dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş üsullarla göstərilir.»;

2.6.3. 6.3-1-ci bəndə «məlumatların» sözündən əvvəl «zəruri» sözü əlavə edilsin və həmin bənddən «vaxtında və ya» sözləri çıxarılsın;

2.7. 7-ci hissə və Qeyd hissəsi ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*5 mart 2024-cü il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dərman vasitələrinin farmakonəzarət Qaydası»nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*



Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş «Dərman vasitələrinin farmakonəzarət Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. 2.1-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

«2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:»;

1.2. 2.1.19-cu yarımbəndə «istifadə edilən» sözlərindən sonra «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) qərarı ilə təsdiq edilmiş» sözləri əlavə edilsin;

1.3. 2.1.23-cü yarımbənddə «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) təlimatıdır.» sözləri «Nazirlik tərəfindən müəyyən edilmiş prosedur;» sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.1.24-2.1.26-cı yarımbəndlər əlavə edilsin:

«2.1.24. dərman vasitəsinin qeydiyyat tarixi - eyni təsiredici maddə və ya eyni təsiredici maddə kombinasiyalı dərman vasitələrində, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin Avropa İttifaqında (bundan sonra - Aİ) ilk dəfə qeydiyyata alındığı tarix və ya bu tarixi müəyyən etmək mümkün olmadıqda, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin məlum olan ilk qeydiyyat tarixi;

2.1.25. dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixi - bu Qaydanın 2.1.24-cü yarımbəndində nəzərdə tutulmuş dərman vasitələri istisna olmaqla hər hansı bir ölkədə dərman vasitəsinin ilk qeydiyyat tarixi;

2.1.26. məlumat kilid tarixi - dövri olaraq yenilənən təhlükəsizlik hesabatında verilən məlumatların toplanmasının bitdiyi tarix.».

2. 3.8-ci bəndə «rus» sözündən sonra «, türk» sözü əlavə edilsin.

3. 13-cü hissə üzrə:

3.1. 13.1-ci bəndə «vəsiqə sahibi» sözlərindən sonra «, müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri» sözləri əlavə edilsin;

3.2. 13.2-ci bəndə «Vəsiqə sahibi» sözlərindən sonra «, müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri» sözləri əlavə edilsin;

3.3. 13.4-cü bəndə «Vəsiqə sahibi» sözlərindən sonra «və müalicə-profilaktika müəssisələri» sözləri əlavə edilsin;

3.4. 13.5-ci bəndin birinci abzasına «Vəsiqə sahibi» sözlərindən sonra «və müalicə-profilaktika müəssisələri» sözləri əlavə edilsin.

4. 16-cı hissə üzrə:

4.1. 16.2.3-cü və 16.2.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

«16.2.3. dərman vasitəsinin satışda olduğu digər ölkələrdən əldə etdiyi dərman vasitəsinin istifadə təlimatında əks edilən məlumatlara uyğun olmayan ciddi əlavə təsirlər haqqında bildirişləri həmin məlumatı aldıqdan sonra 15 (on beş) təqvim günü müddətində Quruma göndərir;

16.2.8. təsiredici maddəsi Avropa Dərman Agentliyinin rəsmi internet saytında göstərilən «Dərman vasitələrinin Avropa İttifaqında (Aİ) qeydiyyat tarixləri və dövri olaraq yenilənən təhlükəsizlik hesabatının təqdim edilmə müddətləri siyahısı»na (List of EURDs and frequency of submission of PSURs) daxil edilən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını dərman vasitəsinin qeydiyyat tarixinə uyğun olaraq həmin siyahı ilə müəyyən olunmuş müddətdə və dövrilikdə Quruma təqdim edir;»;

4.2. aşağıdakı məzmunda 16.2.8-1-ci və 16.2.8-2-ci yarımbəndlər əlavə edilsin:

«16.2.8-1. təsiredici maddəsi bu Qaydanın 16.2.8-ci yarımbəndində qeyd olunan siyahıya daxil edilməyən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını həmin dərman vasitələrinin ilk dövlət qeydiyyatı Azərbaycan Respublikasında olduğu halda onların qeydiyyata alındığı tarixdən və ya dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixindən etibarən ilk 2 (iki) il ərzində hər altı aydan bir, sonrakı 2 (iki) il ərzində ildə bir dəfə, sonrakı dövr ərzində - hər 3 (üç) ildən bir Quruma təqdim edir;

16.2.8-2. dövri olaraq yenilənən təhlükəsizlik hesabatını məlumat kilid tarixindən etibarən 90 (doxsan) təqvim günündən gec olmayaraq Quruma təqdim edir;»;

4.3. 16.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

«16.2.9. dərman vasitəsi yenidən dövlət qeydiyyatına alındığı zaman dövri olaraq yenilənən təhlükəsizlik hesabatını Quruma təqdim edir;».

5. 19.4-cü bənddə «tibb müəssisələrinin» sözləri «müalicə-profilaktika müəssisələrinin» sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 18 mart 2024-cü il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə əlavə - «Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri»nin 2.1.546-cı yarımbəndinin «Tibbi xidmətin adı» sütununa «övladlığa götürmə» sözlərindən sonra «və himayədar ailə (himayədar valideyn) olma» sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 27 mart 2024-cü il*

# Nazirlər Kabinetinin bir sıra qərarlarına dəyişikliklər edildi

**Azərbaycan Respublikası Nazirlər Kabineti qanunvericilik aktlarına dəyişikliklərlə bağlı Azərbaycan Respublikası Prezidentinin bir neçə Fərmanının icrası ilə əlaqədar olaraq özünün bəzi qərarlarında dəyişiklik edilməsi haqqında qərarlar qəbul edib.**

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun imzaladığı bu sənədlərdə səhiyyə ilə bağlı bəzi məsələlər də nəzərdə tutulub.

Belə ki, «Azərbaycan Respublikası Prezidentinin «Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında» 2018-ci il 16 iyul tarixli 205 nömrəli, «Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» 2018-ci il 1 noyabr tarixli 323 nömrəli, «Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» 2019-cu il 16 yanvar tarixli 476 nömrəli, «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» 2019-cu il 16 yanvar tarixli 477 nömrəli, «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə» 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli və «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» və «Təhsil haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» 2022-ci il 8 iyun tarixli 1711 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2383 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Qərarda digər məsələlərlə yanaşı bildirilir ki, «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində «Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi» publik hüquqi şəxsin yaradılması haqqında» Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 288 nömrəli Qərarının 7-ci hissəsi ləğv edilsin.

*(Davamı səhifə 6-da)*

# Nazirlər Kabinetinin bir sıra qərarlarına dəyişikliklər edildi

*(Əvvəli səhifə 5-də)*

Eləcə də «Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar»ın və «Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı»nın təsdiq edilməsi haqqında» 2022-ci il 3 sentyabr tarixli 342 nömrəli Qərarın 3-cü hissəsi, «Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası»nın təsdiq edilməsi haqqında» 2022-ci il 3 sentyabr tarixli 343 nömrəli Qərarın 3-cü hissəsi, «Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi»nin təsdiq edilməsi haqqında» 2022-ci il 3 sentyabr tarixli 344 nömrəli Qərarın 3-cü hissəsi və «Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası»nın təsdiq edilməsi haqqında» 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarın 2-ci hissəsi ləğv olunub.

«Azərbaycan Respublikası Prezidentinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2013-cü il 25 noyabr tarixli 38 nömrəli, «Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1117-IVQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında» 2014-cü il 22 dekabr tarixli 416 nömrəli, «Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi»ndə dəyişikliklər edilməsi haqqında» 2018-ci il 29 avqust tarixli 252 nömrəli və «Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və «Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» 2018-ci il 18 oktyabr tarixli 310 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2411 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərarının 2-ci bəndində deyilir ki, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası»nın və «Vəzifə (tarif) maaşlarına əlavə verilən işçilərin Siyahısı»nın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 225 nömrəli Qərarının 2-1-ci hissəsi ləğv edilir.



Qərarın 3-cü və 4-cü bəndlərinə əsasən, «Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası»nın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 2020-ci il 17 yanvar tarixli 15 nömrəli Qərarının 2-ci hissəsi, habelə «Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası»nın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilir.

Baş nazirin bu qəbildən imzaladığı daha bir sənəd «Azərbaycan Respublikası Prezidentinin «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə» 2012-ci il 9 aprel tarixli 606 nömrəli, «Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» 2013-cü il 6 fevral tarixli 820 nömrəli, «Uşaqların icbari dispanserizasiyası haqqında» Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə» 2013-cü il 10 aprel tarixli 861 nömrəli, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1150-VQD nömrəli Qanununun tətbiqi haqqında» 2018-ci il 27 iyun tarixli 157 nömrəli, «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında» 2018-ci il 5 iyul tarixli 164 nömrəli və «Psixoloji yardım haqqında» Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə» 2019-cu il 21 yanvar tarixli 482 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2393 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin Qərarıdır.

Bu sənədə əsasən qərara alınıb ki, «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə» Nazirlər Kabinetinin 2012-ci il 5 dekabr tarixli 278 nömrəli Qərarında preambulada «3.1-ci» sözləri «3.2-ci» sözləri ilə əvəz edilsin, 3-cü hissə isə ləğv edilsin.

Həmçinin Nazirlər Kabinetinin «Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı»nın təsdiq edilməsi barədə» 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarının, «Dərman vasitələrinin geri çağırılması Qaydası»nın təsdiq edilməsi haqqında» 2019-cu il 27 noyabr tarixli 460 nömrəli Qərarının və «Dərman vasitələrinin farmakonəzarət Qaydası»nın təsdiq edilməsi haqqında» 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarının 2-ci hissələri ləğv edilib.

Sənədin 13-16-cı bəndləri psixoloji yardım məsələlərinə həsr olunub. Belə ki, Nazirlər Kabinetinin «Psixoloji yardımın növünə, formasına, müddətinə və keyfiyyətinə dair minimum Tələblər»in təsdiq edilməsi haqqında» 2020-ci il 16 oktyabr tarixli 397 nömrəli Qərarının, «Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri»nin təsdiq edilməsi haqqında» 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarının, «Psixoloji yardım göstərmək hüququ olan şəxslərə dair Tələblər»in təsdiq edilməsi haqqında» 2020-ci il 16 oktyabr tarixli 399 nömrəli Qərarının və «Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası»nın təsdiq edilməsi haqqında» 2020-ci il 16 oktyabr tarixli 400 nömrəli Qərarının 2-ci hissələri ləğv olunub.

Nazirlər Kabinetinin daha bir Qərarı «Azərbaycan Respublikası Prezidentinin «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 9 avqust tarixli 277 nömrəli, «Baytarlıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 22 noyabr tarixli 316 nömrəli, «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 9 dekabr tarixli 326 nömrəli, «Arıçılıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2009-cu il 14 aprel tarixli 82 nömrəli, «Balıqçılıq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli 1015-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2014-cü il 11 avqust tarixli 243 nömrəli, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 360-VQD nömrəli Qanununun tətbiqi haqqında» 2016-cı il 23 noyabr tarixli 1123 nömrəli, «Uşaqların zərərli informasiyadan qorunması haqqında» Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə» 2018-ci il 20 noyabr tarixli 354 nömrəli və «Telekommunikasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun tətbiqi və «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» 2023-cü il 4 fevral tarixli 2022 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2406 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında» adlanır.

Sənədə əsasən, Nazirlər Kabinetinin 2018-ci il 10 iyul tarixli 287 nömrəli Qərarı ilə təsdiq edilmiş «Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası»nın «Qeyd» hissəsi ləğv edilib.

# Azərbaycanın Baş naziri ÜST-nin Baş direktoru ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus ilə görüşüb.**

Görüşdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev də iştirak edib.



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirildiyinə görə, görüşdə müasir dünyanı narahat edən məsələlərin müzakirəsi üçün nüfuzlu platforma olan XI Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb. Forumun panellərindən birinin səhiyyə məsələlərinə həsr olunması xüsusilə qeyd edilib. Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uzunmüddətli səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Baş nazir Əli Əsədov Azərbaycanda səhiyyə sistemində aparılan köklü islahatlar barədə məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş dövlət siyasətinin prioritetlərindən biri səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun keyfiyyətli və əlçatan tibbi xidmətlərlə təmin olunmasıdır.

Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən proqram və layihələrin ÜST-nin prioritet istiqamətləri və BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə üst-üstə düşdüyü vurğulanıb.

Həmçinin Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Baş nazir Əli Əsədov UNAIDS-in icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov BMT Baş katibinin müavini, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima ilə görüşüb.**

Görüşdə Azərbaycanın səhiyyə naziri Teymur Musayev də iştirak edib.

Nazirlər Kabinetindən verilən məlumatda bildirilir ki, görüşdə V.Byanyimanın XI Qlobal Bakı Forumunda iştirakının önəmi qeyd olunub.

Azərbaycanın BMT-nin müxtəlif təsisatları, o cümlədən UNAIDS ilə yaxından əməkdaşlıq etdiyi və onların fəaliyyətini dəstəklədiyi vurğulanıb.

İİV/QİÇS ilə mübarizənin Azərbaycanın milli səhiyyə strategiyasının əsas istiqamətlərindən biri olduğu bildirilib.

Diqqətə çatdırılıb ki, 2006-cı ildən başlayaraq Nazirlər Kabineti tərəfindən hər 5 illik dövr üçün İİV/QİÇS ilə mübarizə üzrə Tədbirlər Proqramı qəbul edilir. Proqramların hazırlanması Ümumdünya Səhiyyə Təşkilatı, UNAIDS və Qlobal Fondun tövsiyələri əsasında və onların dəstəyi ilə həyata keçirilir.

Qeyd edilib ki, görülən tədbirlər nəticəsində Azərbaycan yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında yer alıb.

Tərəflər həmçinin Azərbaycan Respublikası ilə UNAIDS arasında əməkdaşlıqla bağlı məsələləri nəzərdən keçiriblər.

# Səhiyyə komitəsi yeni qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə edib

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclasında komitə sədri Əhliman Əmiraslanov gündəliyə «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri ötən il «Dərman vasitələri haqqında» Qanuna edilən dəyişikliklərdən söz açaraq, onların əhəmiyyətindən və icrası sayəsində əldə olunan nailiyyətlərdən danışıb.

AZƏRTAC-ın verdiyi məlumata görə, Əhliman Əmiraslanov bildirib ki, əvvəllər dərman vasitələri ilə, onların qeydiyyatı və ekspertizası ilə bağlı, qeydiyyat sənədlərinin çoxluğu, müddətin uzadılması, dərmanların keyfiyyətinin aşağı, qiymətlərinin isə baha olması ilə əlaqədar xeyli iradlar var idi. Ötən il «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklər ediləndən sonra bu sahədə müsbət istiqamətdə irəliləyişlər müşahidə edilir. Dərmanların qeydiyyatı ilə bağlı sənədlərin sayı, müraciətlərə baxılma vaxtı da kifayət qədər azaldılıb. Qanunun yeni maddələri dövriyyədə olan dərman vasitələrinin keyfiyyətinə təsir edir. Bu sahədə nəzarət ciddi şəkildə artırılıb. Bu da keyfiyyətsiz və vaxtı keçmiş dərmanların apteklərdə satılmasının qarşısının alınması ilə nəticələnib. Dərmanların qiyməti də optimallaşdırılıb, ölkədə vahid qiymət siyasəti tətbiq olunmağa başlayıb. Dərmanların qiyməti ilə bağlı məlumat təqib və izləmə sistemində, o cümlədən elektron resept sistemində öz əksini tapacaq.



«Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə Qanunun icrası nəticəsində ölkəmizdə insanların həyat və sağlamlığının qorunması sahəsində həllini tapan aktual məsələlər barədə fikirlərini bölüşən komitə sədri qeyd edib ki, bu dəyişikliklərdən sonra ölkəmizdə dərman istehsalı sənayesinin yaradılması üzrə xeyli iş görülüb. Artıq həm azərbaycanlı sahibkarların, həm də dünyada tanınmış şirkətlərin iştirakı ilə bir neçə dərman istehsalı müəssisəsi istifadəyə verilib, bir neçəsinin isə yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir. Bütün bunlar keyfiyyətli dərman istehsalına, xaricdən ölkəyə gətirilən dərmanların sayının azalmasına, dərmanların qiymətinin aşağı düşməsinə gətirib çıxaracaq.

Qanun layihəsi barədə məlumat verən **Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev** diqqətə çatdırıb ki, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanunda bir sıra yeni anlayışlar təsbit edilib. Bu dəyişikliklərin məntiqi davamı olaraq hazırda müzakirəyə çıxarılan layihədə qüvvədə olan 14 qanuna bəzi ifadə və terminlərin uyğunlaşdırılması və dəqiqləşdirilməsi məqsədilə 36 dəyişiklik təklif olunub. Şöbə müdiri qeyd edib ki, layihədə Səhiyyə komitəsinin profilinə uyğun rəy verəcəyi «Sanitariya-epidemioloji salamatlıq haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında», «Onkoloji yardım haqqında» və «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» qanunlarda «həkim reseptləri», «dərman vasitələri», «normativ-texniki sənəd» və bu qəbildən olan bir sıra söz və ifadələrin müvafiq olaraq «resept», «dərman və tibb vasitələri», «texniki normativ hüquqi akt» sözləri ilə əvəz edilməsi təklif olunub.

Eyni zamanda, «Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna təklif edilən yeni 36-1-ci maddədə klinik protokolun anlayışı, hazırlanması, onların elektron bazasını yaradılması kimi hüquqi tənzimləmələr təsbit olunub.

Sənədin müzakirəsində deputatlar Məlahət İbrahimqızı və Müşfiq Məmmədlinin fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Komitə iclasında dərmanların reyestrə daxiledilmə qaydalarına baxılıb

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclasında «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsinə (birinci oxunuş) baxılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili bildirib ki, sənəd ölkəmizdə insanların həyat və sağlamlığının, dərman vasitələrinin istehlakçılarının hüquqlarının qorunması, dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdırılması, tələb edilən sənədlərin sayının azaldılması və sahibkarlıq subyektləri üçün prosesin sadələşdirilməsi məqsədilə hazırlanıb.

AZƏRTAC məlumat verib ki, müzakirəyə çıxarılmış «Lisenziyalar və icazələr haqqında» Qanuna dəyişikliklər dərman vasitələrinin və ya dərman maddələrinin reyestrə daxiledilmə və bundan imtina qaydalarının müəyyənləşdirilməsini nəzərdə tutur.

Qanun layihəsinə əsasən, icazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının və dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 11 (on bir) iş günü müddətində dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatını tanıyaraq dərman vasitələrinin dövlət reyestrinə daxil edir və ya imtina haqqında qərar verir. İcazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının dərman vasitələrinin və ya dərman maddələrinin ekspertizasının nəticəsi əsasında 23 (iyirmi üç) iş günü, dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında isə 13 (on üç) iş günü müddətində dərman vasitələrinin idxalına icazəni və onun əlavəsini verir, yaxud icazənin verilməsindən imtina haqqında qərar qəbul edir.

Dəyişikliklərə görə, dərman vasitəsinin Azərbaycan dilində istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap ediləərək ona təqdim olunmalıdır. Bu məsələ «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməlidir. Dərman vasitələrinin ekspertizası əsasında qablaşdırılması Azərbaycan, türk, rus, ingilis, alman, ispan, italyan, fransız və macar dillərində olan, dərman vasitələrinin sadələşdirilmiş ekspertizası əsasında isə beynəlxalq patentləşdirilməmiş adı və əmtəə nişanı adı latın və ya kiril əlifbasında olmaq şərtilə, qablaşdırılması hər hansı dildə olan dərman vasitələri dövlət qeydiyyatına alınmaqla, dərman vasitələrinin dövlət reyestrinə daxil ediləərək, həmin dildə qablaşdırma ilə idxalına, satışına və istifadəsinə yol veriləcək.

Sənədin müzakirəsində deputatlar Rüfət Quliyevin və Elnur Allahverdiyevin fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycan səhiyyə naziri ilə BMT Baş katibinin müavini arasında görüş keçirilib

**XI Qlobal Bakı Forumu çərçivəsində Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevlə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru xanım Vinni Byanyima arasında görüş keçirilib. Görüşdə UNAIDS-in Asiya - Sakit Okean, Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Dəstək Qruplarının direktoru İmonn Merfi də iştirak edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verib ki, qonaqları salamlayan Teymur Musayev Qlobal Bakı Forumunda iştirak etdiyinə görə BMT Baş katibinin müavininə təşəkkürünü bildirib.

«Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, XI Qlobal Bakı Forumu beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından mühüm platformadır. Hazırda dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda bu tədbirin nəticəyönümlü olması istiqamətində həm mahiyyət, həm də təşkilati nöqteyinəzərdən hazırlanması baxımından bütün lazımi tədbirlər həyata keçirilir», – deyə nazir əlavə edib.

Öz çıxışında Teymur Musayev Azərbaycanın BMT-nin aidiyyəti təsisatları ilə yaxından əməkdaşlıq etdiyini və onların fəaliyyətini dəstəklədiyini də diqqətə çatdırıb.




Nazir həmçinin Azərbaycanın İİV/QİÇS-lə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında yer aldığını qeyd edib. Onun sözlərinə görə, Azərbaycanda 2006-cı ildən etibarən İİV-lə mübarizədə milli strateji istiqamətlərin qorunub saxlanılması üçün UNAIDS-in və ÜST-nin dəstəyi ilə hər 5 ildən bir Nazirlər Kabinetinin «İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqram»ları qəbul olunur: «Bu proqramların məqsədi Azərbaycanda İİV infeksiyasının yayılma səviyyəsinin aşağı salınması, İİV-lə yaşayan insanların ömrünün uzadılması və həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır».

Sonda Teymur Musayev dünyada İİV/QİÇS-in təsirləri ilə mübarizə aparmaq və onları azaltmaq üçün davam edən birgə səylərin, həmçinin potensial əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd edib.

Öz növbəsində Vinni Byanyima ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü və yubiley Qlobal Bakı Forumunda iştirakını xatırladıb. O, Bakıda keçirilən forumun hər zaman çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. BMT Baş katibinin müavini Azərbaycanın səhiyyə sahəsində, xüsusən yoluxucu xəstəliklərə, o cümlədən, İİV/QİÇS-ə qarşı mübarizədə qazandığı uğurları qeyd edərək, bu xüsusda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində ciddi nailiyyətlərin əldə olunduğunu bildirib.

Görüşdə tərəflər qarşılıqlı maraq kəsb edən digər məsələlərə də dair fikir mübadiləsi aparıblar.

# Səhiyyə Nazirliyində COP29 danışıqlar qrupunun üzvləri olan ÜST məsul şəxsləri ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində COP29 danışıqlar qrupunun üzvləri olan məsul şəxslər – Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İctimai səhiyyə, ətraf mühit və sosial müəyyənedicilər departamentinin direktoru Mariya Neyra və qurumun Avropa üzrə Regional Ofisinin Yoluxucu xəstəliklər, ətraf mühit və sağlamlıq departamentinin direktoru Robb Batler ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə səhiyyə naziri Teymur Musayev ölkəmizin ÜST ilə bir çox sahələrdə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb: «Azərbaycan bu əməkdaşlığa böyük önəm verir. Ötən müddət ərzində ölkə və regional səviyyədə uğurlu layihələr həyata keçirilib».

Prezident İlham Əliyevin bu səhiyyə təşkilatı ilə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayan nazir dövlət başçısı ilə XI Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana səfəri çərçivəsində ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesusun görüşünü də qeyd edib.

Həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un bu ilin noyabrında Azərbaycanda keçiriləcəyi diqqətə çatdırılıb: «Prezident İlham Əliyev vurğulayıb ki, beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür. Dövlət başçısının sözlərinə görə, Azərbaycan bu tədbirə ev sahibliyi edərək qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizə və milli səviyyədə olan uğurlu addımları ilə yaşıl keçid prosesinə töhfə verəcək».

Teymur Musayev həmçinin ÜST-nin müvafiq strukturlarının rəhbərləri ilə mütəmadi görüşlərin qarşılıqlı əlaqələrə əlavə təkan verdiyini vurğulayıb: «Bu, Azərbaycan Səhiyyə Nazirliyi və Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın dərinləşməsinə töhfə verir».

Səmimi qəbula görə təşəkkürünü bildirən qonaqlar Prezident İlham Əliyevin ÜST ilə əməkdaşlığa verdiyi önəmi yüksək qiymətləndiriblər. XI Qlobal Bakı Forumunda iştirakdan məmnunluğunu bildirən ÜST-nin departament direktorları forumun çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayıblar.

Ölkəmizin COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdıran qonaqlar bunun Azərbaycan üçün çox böyük nailiyyət olduğunu qeyd ediblər. Ümumdünya Səhiyyə Təşkilatının rəhbərlik etdiyi strukturların COP29-a sədrliyə və bu sessiyaya ev sahibliyi prosesində Azərbaycana öz dəstəyini verməyə hazır olduğu vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyində Koreyanın aparıcı tibb universitetinin rəhbərliyi ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində Koreyanın aparıcı tibb universitetlərindən biri olan «Kyung Hee» Universitetinin rəhbərliyi ilə görüş təşkil olunub.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə Koreya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıb və iki ölkə arasında səhiyyə sahəsində mövcud olan əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib.

Nazirin dediyinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur: «Koreya Respublikasında səhiyyə sahəsində inkişaf etmiş sistem yaradılıb. Koreyalı mütəxəssislər təkcə praktik fəaliyyətləri ilə deyil, həm də elmi işləri ilə bütün dünyada tanınırlar. Burada xərçəng, dayaq-hərəkət sistemi, ürək, qaraciyər və böyrək xəstəliklərinin müalicəsinin yeni üsulları təkmilləşdirilərək tətbiq olunur».

Nazir ikitərəfli əməkdaşlığın uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində «Kyung Hee» Universitetinin nümayəndələri də Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında maraqlı olduqlarını vurğulayıblar. Qeyd edilib ki, «Kyung Hee» Universitet sistemi ənənəvi Koreya təbabətində aparıcı məktəb hesab olunur. Universitetə 23 bakalavr kollec, 1 ümumi magistratura, 13 ixtisaslaşdırılmış magistr proqramı və 49 köməkçi tədqiqat institutu daxildir.

Görüşdə tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.




# «Hər kəs üçün sağlamlıq»

## *Səhiyyə naziri XI Qlobal Bakı Forumunun bu mövzuda panel iclasında çıxış edib*

**XI Qlobal Bakı Forumu çərçivəsində «Hər kəs üçün sağlamlıq» mövzusunda növbəti panel iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyevin moderatorluq etdiyi iclasda BMT Baş katibinin müavini, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** çıxışında qeyd edib ki, BMT-nin qurumu olaraq hesab edirlər ki, bütün səbəbləri araşdırıb xəstəliklərin qarşısını almaq lazımdır. «Azərbaycan bu sahədə böyük addımlar atır. Xəstəliklərə yoluxma, həmçinin ölüm hallarının sayının azaldılması məsələlərini diqqətdə saxlayır», — deyə UNAIDS-ın icraçı direktoru bildirib.

Beynəlxalq Atom Enerjisi Agentliyinin Baş direktorunun müavini **Najat Moxtar** xərçəng xəstələrinin müalicəyə əlçatanlıq imkanlarından danışıb. Səhiyyəyə investisiyaların insana qoyulan sərmayə hesab edildiyini deyən Najat Moxtar bildirib: «Dünya ölkələrindən 30-nun heç bir tibbi ləvazimatı yoxdur. Ona görə də bu ölkələr xərçəng xəstələrinin müalicəsini həyata keçirə bilmir. Həmin xəstələr yalnız başqa ölkələrə gedib müalicə aldıqları təqdirdə həyatlarını davam etdirə bilirlər. Bizə 80 ölkədən dəstək üçün müraciət edilib. Bunlar əsasən Afrika ölkələridir».

Səhiyyədə tədqiqatların vacibliyini qeyd edən Najat Moxtar bunun üçün kifayət qədər maliyyələşmənin olmadığını söyləyib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, panel sessiyada çıxış edən Azərbaycanın səhiyyə naziri **Teymur Musayev** bildirib ki, bəşəriyyətin üzləşdiyi son qlobal təhlükələr hamımızı parçalanmış dünyanı bərpa etmək üçün sıx əməkdaşlıq etməyə məcbur edir: «Qlobal miqyasda hamı üçün sağlamlığa nail olmaq yolunda bir sıra problemlər var. Xəstəliyin yükü bütün dünyada dəyişir. Hesablamalara görə, 2040-cı ilə qədər bütün ölümlərin 50 faizi qeyri-infeksion xəstəliklərlə bağlı olacaq. Dünya əhalisinin üçdəbiri üçün zəruri dərman vasitələrinə çıxış problemlidir. Dərmanların qiyməti zəif inkişaf etmiş ölkələr üçün əlçatmazdır. Yeni texnologiyaların transferi, qiymət modellərinin nəzərdən keçirilməsi, əqli mülkiyyət maneələrinin aradan qaldırılması, məhsulun inkişafı üzrə tərəfdaşlıqların tətbiqi əsas dərmanlara çıxışı asanlaşdıra bilər», — deyə nazir bildirib. Qeyd edib ki, hamının təhlükəsizliyi və sağlamlığının təmin edilməsi son dərəcə aktual məsələyə çevrildiyindən, bugünkü müzakirələr məqsədə çatmaq üçün kollektiv səyləri gücləndirmək baxımından çox aktualdır. Buna görə də daha yaxşı hazırlıq və adekvat strategiya davamlı qlobal səhiyyə infrastrukturu tələb edir.

Teymur Musayev qeyd edib: «Biz «Hər kəs üçün sağlamlıq» adlı yeni dövrə qədəm qoyuruq. Bu da sağlamlıq üçün məsuliyyətli qərarların qəbulunda hər birimizin fəal iştirak etməsi deməkdir. «Hər kəs üçün sağlamlıq» anlayışı yalnız hökumətlərə ünvanlanan fundamental məsuliyyət kimi qəbul edilməməlidir. Vətəndaşlar sağlam həyat tərzi proqramlarında fəal iştirak etməyə və sağlamlıq üçün məsuliyyəti hökumətlərlə bölüşməyə təşviq edilməlidirlər».

Nazir vurğulayıb ki, səhiyyə sisteminə ənənəvi yanaşma müasir dövrün tələbləri ilə uzlaşa bilməzdi: «İnformasiya texnologiyalarının sürətli inkişafı «Hər kəs üçün sağlamlıq» konsepsiyasının reallığa çevrilməsinə səbəb olub. Səhiyyənin rəqəmsallaşması sektorun yalnız texnoloji baxımdan deyil, ilk növbədə, mədəni baxımdan transformasiyasıdır. Rəqəmsal texnologiyalar birgə qərarvermə prosesində həkim-pasiyent münasibətlərini fərqli səviyyəyə qaldırır. Bu isə fərdin sağlamlığı amilini önə çəkən yeni səhiyyə paradiqmasının yaranmasına yol açıb».

Azərbaycanda İlham Əliyevin prezidentliyi dövründə sosialyönümlü siyasətin həyata keçirilməsinin, rəqəmsal hökumətə keçidin, iqtisadiyyatın şaxələndirilməsinin hazırkı suverenliyimizi və regionun aparıcı ölkəsi kimi tanınmağımızı şərtləndirdiyini bildirən nazir vurğulayıb: «Ölkə başçısının rəhbərliyi altında son 20 il ərzində Azərbaycanda milli səhiyyə sisteminin infrastruktur, insan resursları və səhiyyənin maliyyələşdirilməsi baxımından gücləndirilməsi istiqamətində mühüm işlər görülüb».



Teymur Musayev bildirib ki, dövlət başçısının 25 dekabr 2023-cü il tarixli Sərəncamı iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə fəal töhfə verən, beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi Azərbaycan Respublikasının rolunu xüsusilə vurğulayır: «Bunun bariz təsdiqi bu ilin noyabrında COP29-un Bakıda keçirilməsidir».

2024-cü ilin Azərbaycanda «Yaşıl Dünya naminə Həmrəylik İli» elan edildiyini vurğulayan nazir sağlamlığımızın yaşadığımız mühitlə sıx bağlı olduğunu qeyd edib: «İqlim dəyişikliyi sağlamlığımıza, rifahımıza və təhlükəsizliyimizə əhəmiyyətli dərəcədə təsir göstərir».

Teymur Musayev həmçinin «Hər kəs üçün sağlamlıq» konsepsiyasının Azərbaycanda keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz qayıtmasının təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, «Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Azərbaycan hökuməti işğaldan azad edilən ərazilərin təmir və bərpası istiqamətində misli görünməmiş yenidənqurma işləri aparır. Lakin azad edilmiş torpaqların işğal dövründə mina və digər partlayıcı maddələrlə hədsiz dərəcədə çirkləndirilməsi həmin Proqramda nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsinə mane olur. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra 350-dən çox vətəndaşımızın mina partlayışlarının qurbanı olduğunu deyən Teymur Musayev bunu «səhiyyə sistemi üçün ciddi problem» adlandırıb. Həmçinin bildirib ki, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə işğaldan azad edilən ərazilərə əhalinin sağlam inteqrasiyası üçün psixoloji dəstək layihəsinə başlayıb: «Biz səhiyyə üzrə qlobal əlaqələndirici təşkilat kimi Ümumdünya Səhiyyə Təşkilatını dünya əhalisinin sağlamlığını və rifahını qorumaq üçün norma və standartları müəyyən etməyə çağırırıq», — deyə Azərbaycan səhiyyə naziri fikrini tamamlayıb.

Xorvatiyanın sabiq Prezidenti **Kolinda Qrabar-Kitaroviç** diqqətə çatdırıb ki, dünya ictimaiyyəti bir məsələdən digər məsələyə keçir, yəni bir hadisəni digəri ilə asanlıqla əvəz edə bilir. Məsələn, dünyada baş verən müharibələr qısa müddət ərzində COVID-19 pandemiyasını unutdurdu. O, növbəti pandemiyaya hazır olmağımızın, onu diqqətdə saxlamağımızın vacibliyini vurğulayıb.

Çoxvektorlu əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edən Kolinda Qrabar-Kitaroviç məlumat və rəqəmsal alətlərin rolundan da danışıb.

Misirin sabiq ailə və əhali naziri **Muşira Xattab** səhiyyəyə və təhsilə əlçatanlığın insan hüquqları olduğunu deyib. «Hər bir ölkə bunu təmin etməli, bərabərsizliyin qarşısını almalıdır. Hamıya bərabər şəkildə yanaşılmalı, genderə, dini inanclara, irqi, irsi, fiziki duruma görə ayrı-seçkilik edilməməlidir. İnsan hüquqlarının bərpası ilə parçalanmış dünyanı bərpa edə bilərik. Odur ki, yeni sistem qurmalı, monitorinq və nəzarət həyata keçirməliyik», — deyə sabiq nazir əlavə edib.

Qırğızıstanın sabiq Baş naziri **Comart Otorbayev** öz növbəsində bildirib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təşkilat kimi mükəmməl inkişaf edib. O vurğulayıb ki, biz hazırda parçalanmış, bölünmüş səhiyyə sistemi olan dünyada yaşayırıq. COVID, vərəm kimi xəstəliklərlə mübarizədə görülən tədbirlərdən bəhs edən Comart Otorbayev bildirib ki, dünya sanki bir qorxu kölgəsində yaşamaqdadır. Bəşəriyyətin yoluxucu xəstəliklərdən xilas ola bilməsi üçün bütün dünya birgə mübarizə aparmalıdır.

Moldovanın sabiq Baş naziri **Kirill Qaburiç** dünyanı düzgün prioritetlər müəyyənləşdirməyə, qlobal dialoq qurmağa çağırıb. Deyib ki, COVID bizə bəşəriyyət kimi kövrək olduğumuzu göstərdi. O, vaksinlərin paylanılmasındakı bərabərsizlikdən də söz açıb.

# Qohumlar arasında nikahlarla bağlı ictimai müzakirə keçirilib

**Qohumlar arasında nikah halları və onların törətdiyi fəsadlar bu adətin olduğu ölkələrdə narahatlıq doğuran aktual ailə məsələlərindəndir. Belə nikahlar bir çox hallarda genetik xəstəlikləri olan, sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Təəssüf ki, Azərbaycanda da yaxın qohumlar arasında bağlanan nikahlara rast gəlmək mümkündür.**

Qan qohumları arasında nikahların mənfi nəticələrinin qarşısının alınması istiqamətində dövlət tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir. Bu aktual problemin həlli yollarını araşdırmaq üçün dövlət qurumlarının, millət vəkillərinin, bu sahə üzrə mütəxəssislərin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin iştirakı ilə geniş tərkibdə ictimai müzakirə keçirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sosial Tədqiqatlar Mərkəzi və «Xalq qəzeti»nin birgə təşkilatçılığı ilə baş tutan müzakirədə **Dövlət Komitəsinin sədri Bahar Muradova** ictimai müzakirənin vacib və aktual məsələyə həsr olunduğunu qeyd edib. Cəmiyyətimizdə ailənin rolundan danışan komitə sədri ənənələrə dəyər verməyin əhəmiyyəti ilə yanaşı, həyatımıza mane olan cəhətlərin arxa plana keçməli olduğunu da vurğulayıb.

Komitənin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, Bahar Muradova bu istiqamətdə dövlətin gördüyü işlərdən söz açıb. Ailə Məcəlləsinin 12-ci maddəsi ilə yaxın qohumlar arasında nikahın qadağan edildiyini bildirən Komitə sədri əlavə edib ki, dövlətin bu yöndə apardığı siyasətin əsas məqsədlərinə çatması üçün qanunvericiliyə, qanunların icrası mexanizmlərinə, onları həyata keçirən dövlət orqanlarının fəaliyyətinə, ictimaiyyətin bu məsələdə iştirakı və mövqeyinə vaxtaşırı yenidən baxılmalı və neqativ halların aradan qaldırılmasının yolları araşdırılmalıdır.

Məsələnin hökumətin diqqətində olduğunu vurğulayan sədr 2015-ci ildə Ailə Məcəlləsinə dəyişiklik edildiyini və nikahdan əvvəl hər kəsin tibbi müayinədən keçdiyini, hazırda bu addımın irsi xəstəliklərin və şikəst uşaqların doğulmasının qarşısının alınmasında çox gözəl nəticələr verdiyini söyləyib. O, Nazirlər Kabinetinin «Erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası»nı xatırladıb, bu qaydanın tətbiqinin müəyyən nəticələr verdiyini deyib. B.Muradova bildirib ki, Dövlət Komitəsi bununla bağlı bütün dövlət orqanlarının fəaliyyətinə dair məlumatları toplayır və ildə 1 dəfə Nazirlər Komitəsinə təqdim edir. Son iki ilin rəqəmlərini diqqətə çatdıran sədr həmin nəticələr əsasında Komitənin sifarişi ilə tədqiqatlar aparıldığını da deyib.

Sonda məsələnin həlli istiqamətində düşüncələrini səsləndirən Komitə sədri qeyd edib ki, qanunvericiliyə müvafiq dəyişikliklərin olunması müəyyən nəticə verə bilər: «İnanıram ki, biz həm qanunverici aspektdən, həm də effektiv icra mexanizmlərinin yaradılması ilə bağlı müəyyən təkliflərlə çıxış edəcəyik. Bu istiqamətdə həyatımıza mane olan hər bir məsələni müzakirə edərək, həm onların ictimaiyyətə çatdırılması, həm də tarixləşdirilməsi işinə töhfə verəcəyik. İstəyimiz odur ki, qanunvericiliyə həm erkən nikahlarla, həm də qohum nikahları ilə bağlı dəyişikliklər edilsin və hüquqi çərçivə ciddiləşdirilsin. Bu işə başlamasaq, çox ağır nəticələr baş verə bilər».

**Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc** dünya əhalisinin təxminən 20%-inin sosial faydalarına görə qohum evliliyini təqdir etdiyini, bunun daha çox iqtisadiyyatı qapalı, savadsızlıq səviyyəsi yüksək olan və məlumatlı olmayan cəmiyyətlərdə baş verdiyini söyləyib. O, ailəni milli varlığın qoruyucusu adlandıraraq qeyd edib ki, yaxın qohumlar arasında nikahın ən mühüm fəsadlarından biri sağlamlıq problemlərinə səbəb olmasıdır: «Əlbəttə, qüsurlu uşaqların doğulmasına səbəb təkcə qohumluq deyil, ər-arvadın əcdadlarının gen vasitəsilə nəsillərə ötürülən xəstəliyidir. Qan qohumluğuna əsaslanan evliliklər isə həmin nikahdan doğulan uşaqlara müəyyən genetik xəstəliklərin ötürülməsi riskini artırır. Buna görə bir çox xalqlarda ailə üzvlərinin sağlamlığı və xəstəliyinin qeyd edildiyi «ailə ağacları» yaradılır».

Çıxış yolları barədə fikirlərini diqqətə çatdıran Z.Oruc bildirib ki, ailənin maliyyə vəziyyətinin yaxşılaşdırılması, səhiyyə sahəsində ictimaiyyətin məlumatlandırılması və qadınlar üçün ali təhsil ailələr arasında qohum nikahlarının nisbətini azalda bilər: «Digər tərəfdən, ən çox rast gəlinən genetik pozuntuları müəyyən etmək üçün nikahdan əvvəl genetik müayinə təklif olunmalı, risk altında olan ailələr üçün genetik məsləhət xidmətləri təmin edilməli, genetik xəstəliklərlə bağlı araşdırmalar təşviq olunmalıdır. Ən vacib addımlardan biri qohum nikahı və onun fəsadları haqqında geniş dini müzakirələrin aparılmasıdır. Qohum evliliklər üçün genetik test yönləndirmə mərkəzləri yaradıla bilər».

**«Xalq qəzeti»nin baş redaktoru Əflatun Amaşov** qeyd edib ki, yaxın qohum evliliklərinin qarşısını almaq üçün qanunvericilik sərtləşdirilməlidir. Onun sözlərinə görə, dinləmədə iştirak edənlər arasında sorğu keçirilsə, 50 faizə qədər insanın ailəsində və ya yaxınında öz qohumu ilə evlənən şəxslərin olduğu ortaya çıxar: «Yaxın qohumların nikaha cəhdinin qarşısı ciddi alınmalıdır. Burada cərimələr belə rol oynamayacaq. Maarifləndirmə məsələsində isə əsas güc jurnalistlərin üzərinə düşür. Media ilə birgə müxtəlif layihələr, müsabiqələr keçirilə bilər».



**Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdiri Rüstəm Qasımov** ailənin bütövlükdə həm cəmiyyətin, həm dövlətin sağlamlığının göstəricisi olduğunu vurğulayıb və qeyd edib ki, bu həm strateji bir problemdir, həm cəmiyyətin problemidir, həm də fərd səviyyəsində problemdir. Sektor müdiri xəstə doğulmuş uşağın ailə üçün həm mənəvi, həm də maddi çətinlik yaranmasına gətirib çıxardığını deyib. «Əgər bizdə bu kimi halların yayılma dərəcəsi artsa, genofondumuza və gələcək nəsillərimizə təsir edər. Bu evliliklər nəticəsində doğulmuş xəstə, əlil uşaqlar iztirab çəkirlər. Dövlət və cəmiyyət arasında münasibətlərdə bəzən dövlət cəmiyyətin arxasınca getməli, bəzi hallarda isə önə çıxaraq, cəmiyyəti öz arxasınca çəkməlidir. Bu məsələdə vəziyyət göstərir ki, uzun illərdir maarifləndirmə aparılsa da, məsələ həllə də qalır. Bu baxımdan, bu məsələdə dövlətin daha qabağa keçməsi, bunu qadağan etməsi zəruri ola bilər».

**Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdiri Araz Poladov** qeyd edib ki, ailə dəyərlərinə, eləcə də cəmiyyətin və fərdlərin sağlamlığına xələl gətirən amillərdən biri qohum evlilikləridir. Qohum nikahlarının əsas mənfi tərəfi bu nikahda doğulan uşaqların irsi, genetik xəstəliklərlə doğulma ehtimalının yüksək olmasıdır. A.Poladov bildirib ki, Azərbaycanın ailə qanunvericiliyində dövlət tənzimlənməni minimumda saxlayıb, yalnız birinci və ikinci dərəcəli qohumların nikaha daxil olması qadağan edilib. Xarici ölkələrin bu sahədə təcrübəsinin öyrənildiyini deyən sektor müdiri diqqətə çatdırıb ki, Avropanın müəyyən ölkələrində, ABŞ-nin 24 ştatında üçüncü və dördüncü dərəcəli qohumlar arasında evliliklər qadağan olunsa da, bəzi ölkələrdə belə bir qadağa yoxdur. Yəqin ki, qadağanın olmaması orada qohum nikahlarının baş verməməsi ilə bağlıdır: «Bizdə maarifləndirmə işlərinin aparılmasına baxmayaraq, görünür, bu yolla məqsədlərə çatmaq tam mümkün deyil. Biz cəmiyyətin sağlamlığı naminə proqressiv addım atmağı, yanlış stereotiplərə söykənən adət-ənənələrdən imtina etməyi bacarmalıyıq. Qanunvericilik çərçivəsində atıla biləcək ilk addım 3-cü və 4-cü dərəcəli qohumların yaxın qohumlar siyahısına daxil olunması və bununla da onlar arasında nikahın qadağan edilməsidir. İstənilən halda, bu məsələdə ictimai müzakirənin aparılması, ictimai rəyin öyrənilməsi vacibdir».

Çıxış edən **millət vəkili Fazil Mustafa** söyləyib ki, dövlət qohum evliliyini cəmiyyət üçün strateji təhlükə olaraq görürsə, atmalı olduğu addımları atmalı, qadağa tələb olunursa, qadağa qoymalıdır: «Qadağanın alternativi maarifçilikdir. Belə nikahların özü yox, nəticəsi müzakirə olunmalıdır. Məktəbdə şagirdə deyilməlidir ki, qohumla evlənsən, şikəst övladın dünyaya gələ bilər». Millət vəkili məsələni sosiallaşma problemi ilə bağlayıb, bildirib ki, bölgələrdə gənclərin sosiallaşması üçün mədəniyyət mərkəzlərinin fəaliyyət göstərməsi və mədəni mühitin yaradılması zəruridir.

*(Davamı səhifə 11-də)*


## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**«Elmi Tədqiqat Pediatriya İnstitutu» PHŞ**

Tibb bacısı (qardaşı) - 4.0

*Ünvan: B.Bagırova küç., 15*
*Telefon: 595-21-00*

**Lənkəran Şəhər Psixiatriya Xəstəxanası**

Əczaçı - 1.0

*Ünvan: Nəsimi küç., 92*
*Telefon: (02525) 4-44-79*

**«Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ**

Şöbə müdiri - 1.0 (Elmi radiologiya şöbəsi)

Tibb bacısı (qardaşı) - 6.0

*Ünvan: Şərifzadə küç., 196*
*Telefon: 432-12-14*

**Sumqayıt Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: Natavan küç., 30*
*Telefon: (01865) 5-94-05*

**Respublika Uşaq Sanatoriyası**

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Buzovana qəs. R.İmanov küç. 31*
*Telefon: 453-51-12*



Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@health.gov.az

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.

İndeks: 1065 Tiraj: 3000

# «Artroplastika və artroskopiya kursu: çiyin və diz nahiyəsi»

## *Bakıda bu mövzuda elmi-praktik konfrans keçirilib*

**Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu (ETTOİ) və Azərbaycan Ortopediya Cəmiyyəti tərəfindən «Artroplastika və artroskopiya kursu: çiyin və diz nahiyəsi» mövzusunda elmi-praktik konfrans keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, konfransda **Azərbaycanın səhiyyə nazirinin müavini İlqar Qasımov,** ETTOİ-nin baş həkimi Kamil Eyvazov, Türkiyənin ölkəmizdəki səfirliyinin, TİKA Bakı Koordinatorluğunun, ölkəmizin ali təhsil və tibb müəssisələrinin nümayəndələri, Türkiyənin bu sahə üzrə tanınmış alim həkimləri, o cümlədən professorlar Vedat Şahin, Muhammet Baybars Ataoğlu və Ulunay Kanatlı, dosentlər Baran Sarıkaya, Mustafa Özer, Mehmet Ali Tokgöz, İnsi Hazal Ayas və digərləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.




Travmatologiya və ortopediya sahəsindəki nailiyyətləri və imkanları qarşılıqlı dəyərləndirmək, müzakirə olunan mövzular ətrafında səmərəli fikir mübadiləsi aparmaq məqsədi daşıyan tədbirdə, eyni zamanda, ETTOİ-nin fəaliyyətinin optimallaşdırılması, ölkəmizin bu sahə mütəxəssisləri üçün uğurlu təcrübə mübadiləsi aparılması, innovativ praktikaların tətbiqi imkanlarına baxılması nəzərdə tutulub. Gələcəkdə xarici ölkələrdə, xüsusən də Türkiyədə yerləşən bir çox tibb müəssisələri və universitetlərlə ortaq fəaliyyətə şərait yaratmaq da konfransın məqsədlərinə aid idi. Tədbirin mühüm istiqamətlərindən biri də qarşılıqlı əməkdaşlıq, ortaq çalışmaların aparılması idi. Bu məqsədlə gələcəkdə Azərbaycan travmatoloq və ortopedləri tərəfindən mühüm elmi tədqiqatların həyata keçirilməsi üçün şərait yaranacaq və təkliflər veriləcək.

Çıxış edən səhiyyə nazirinin müavini İlqar Qasımov tədbir iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayıb və konfransda müzakirə olunan mövzunun aktuallığını vurğulayıb. Milli səhiyyənin qarşısında duran mühüm vəzifələrdən danışan nazir müavini deyib: «Bunların sırasında xidmət keyfiyyətinin və səhiyyə əlçatanlığının artırılmasını qeyd etmək olar. Ən əsası isə əhalinin tibbi xidmətlərindən məmnunluq səviyyəsinin yüksəldilməsidir. Bunun üçün səhiyyə sistemləri tibb elminin bütün resurslarından istifadə etməlidir. Bu işdə davamlı tibbi təhsil mühüm rol oynayır».

«Bugünkü elmi-praktik konfrans təbabətin ən aktual sahələrindən birinə — travmatologiya və ortopediya sahəsinə həsr olunub. Ümid edirəm ki, elmi-praktik konfrans hər bir iştirakçı üçün faydalı olacaq, müzakirə olunan mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılacaq», — deyə səhiyyə nazirinin müavini fikrini tamamlayıb.

200-ə yaxın həkimin iştirakı ilə keçirilən elmi-praktik konfransda travmatologiyanın aktual elmi və praktiki aspektlərinə dair məruzələr dinlənilib.

Konfrans panel sessiyalarla davam edib. Sessiyalarda Azərbaycan və Türkiyə ekspertləri «Diz oynağının artroplastikası», «Meniskin cərrahi bərpa texnikaları», «Çiyin oynağının artroskopiyası» və digər mövzularda təqdimatlarla çıxış ediblər.

Tədbirin sonunda mövzu ətrafında müzakirələr aparılıb, verilən suallar cavablandırılıb.

# Laçında reproduktiv sağlamlıq üzrə maarifləndirici aksiya təşkil edilib

**«İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış» proqramı Azərbaycan Respublikasının ən vacib prioritetləri sırasındadır.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu proqram çərçivəsində nazirlik işğaldan azad olunmuş ərazilərə köçürülən vətəndaşlar arasında sağlam həyat tərzinin təşviqi ilə bağlı tədbirləri davam etdirir.

Nazirliyin Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu (ETMGİ) Laçın şəhərində yeniyetmə qızlar arasında reproduktiv sağlamlıqla bağlı maarifləndirici aksiya və konsultasiyalar təşkil edib.

ETMGİ-nin həkim mama-ginekoloqları tematik təqdimatlarla çıxış ediblər. İnstitutun həkimləri tərəfindən yeniyetməlik dövründə orqanizmdə bir sıra dəyişikliklərin baş verdiyi haqqında məlumat verilib. Bundan əlavə, uşaq planlaşdırarkən antenatal klinikada müntəzəm müayinələrdən keçməyin vacibliyi vurğulanıb. Həmçinin şəxsi gigiyena qaydaları ilə bağlı məsləhətlər verilib. Təqdimatlardan sonra maarifləndirici aksiya iştirakçılarının sualları cavablandırılaraq, müzakirələr aparılıb.

Tədbir zamanı yeniyetmə qızların reproduktiv sağlamlığı üçün nəzərdə tutulan rəsm sərgisi nümayiş olunub və informativ bukletlər paylanılıb.

Maarifləndirici tədbir və aksiyada 100-ə yaxın qız və onların valideynləri iştirak ediblər. Sonda tədbirin fəal iştirakçılarına hədiyyələr təqdim olunub.

Qeyd edilib ki, Səhiyyə Nazirliyi işğaldan azad olunmuş digər ərazilərdə də davamlı olaraq sağlam həyat tərzinin təşviqi ilə bağlı maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsini nəzərdə tutub.

# Qohumlar arasında nikahlarla bağlı ictimai müzakirə keçirilib

*(Əvvəli səhifə 10-da)*

**Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova** qohum nikahlarına münasibətin öyrənilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 1354 respondent arasında keçirilmiş sorğu haqqında məlumat verib: «Əksəriyyət belə nikaha mənfi yanaşsa da, müsbət yanaşanlar da var». O bildirib ki, qohum evliliklərində əlil uşaqların doğulması riski yad şəxslərin evlilikləri ilə müqayisədə 2 dəfə artıqdır. Həmçinin genetik xəstəliklərlə doğulan uşaqların 8,4 faizi qohum evliliklərinin payına düşür. Əgər dünyada əngəlli doğulan uşaqlar bütün uşaqların 1 faizini təşkil edirsə, qohum evliliklərində bu rəqəm 9 faizdir. Bu ailələrdə ölü və yarımçıq doğuşların sayı digər evliliklərə nisbətən 2 dəfə çoxdur. Qohum nikahlarında ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ-sinir, ürək-damar, şəkər xəstəlikləri və sairdir. «Erkən nikahları qəbul etmədiyimiz kimi, qohum nikahlarını da qəbul etməməliyik. Qanunvericilik sərtləşdirilməli, baba və nənələri eyni olan şəxslərin nikahı qadağan edilməlidir», — deyə şöbə müdiri fikrini tamamlayıb.

Mövzu ilə əlaqədar fikirlərini bildirən millət vəkilləri Məlahət İbrahimqızı, Sevil Mikayılova və Jalə Əhmədova məsələyə insan hüquqları baxımından yanaşıb, qohumlar arasında nikahın mənfi təsirlərinin qarşısının alınması üçün düzgün yolun maarifləndirmə və təbliğat olduğunu vurğulayıblar.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu hesab edir ki, qohum nikahlarının qarşısının sərt şəkildə alınması müsbət nəticələrə gətirib çıxarmayacaq, çünki qadağan olunan məsələ daha çox diqqət və maraq cəlb edir. Ailə quran gənclər həqiqi hisslər varsa, onlar tibbi müayinədən də keçə bilərlər.

Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva deyib ki, maarifləndirmə tədbirlərinin təsiri olsa da, vaxt tələb edir: «Geridə qoyduğumuz həmin dövrdə genofondumuz ciddi təsirlərə məruz qalacaq. Bu səbəbdən də iki seçim arasında qalarıq, ya dövlətin gələcəyi kimi sağlam genofondumuzu, ya da fərdlərin arzu və istəklərini düşünməliyik».

Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya bölməsinin baş həkimi Xuraman Cəfərova ictimai müzakirədə çıxışı zamanı deyib ki, Azərbaycan talassemiya xəstəlikləri baxımından endemik zonadır: «Hər iki valideyn talassemiya daşıyıcısı olduqda xəstə uşaqların doğulma ehtimalı böyük olur, buna valideynlər qohum olduqda daha çox rast gəlinir. Bu gün talassemiya xəstələrinin sayının artmasında qohum evliliklərinin payı çoxdur. Bizim də məqsədimiz odur ki, qohum nikahlarının qarşısı alınsın. Dövlətimiz bu sahədə ciddi işlər görür. 2016-cı ilə qədər doğulan uşaqlar arasında talassemiya xəstəsi illik 200-ə yaxın idisə, həmin ildən etibarən xəstə sayında ciddi azalma müşahidə edilib», — deyə o bildirib.

Həmin mərkəzin tibbi genetika həkimi Ağarza Ağayev isə çox az təsadüf edilən nadir xəstəliklərin məhz qohum evlilikləri nəticəsində yarandığını diqqətə çatdırıb.

Səhiyyə Nazirliyi Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun mama-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Kifayət Adıgözəlova bildirib ki, onlara erkən və qohum nikahların fəsadı kimi xəstələr müraciət edirlər: «Hər insanda DNT-ni formalaşdıran 23 cüt xromosom var. DNT-nin funksiyalarını müəyyənləşdirən, kodlaşdıran genlərdir. Qohumla evlənəndə zərərli genlərin qarşılaşma ehtimalı yüksək olduğuna görə, doğulan uşaqlarda müəyyən xəstəliklərin olması riski yüksək olur. Qohum evliliklər zamanı yaranan bəzi genetik xəstəlikləri uşaq ana bətnində olarkən aşkarlamaq mümkündür. Məsələn, akondoplazia (cırtdan boyluluq) xəstəliyi autosomal dominant xəstəlikdir. Hamiləliyin bəlli bir həftəsində ultrasəs müayinəsi ilə sümüklərin qısalığından şübhələndikdə xəstəlik genetik diaqnozla təsdiqlənə bilər. Skrininq testi ilə hamiləliyin 11-14-cü həftəsi arasında hər hansı patologiya aşkarlanırsa, ya da ananın yaşı 35-dən çoxdursa, bu zaman Daun, Edvards, Patau sindromu üçün risklər olur. Hamilədə diaqnoz genetik analizlə təsdiqlənsə, bu, ana bətnində müəyyənləşdirilən xəstəlik sayılır. Bəzi xəstəliklər isə uşaqlıq, gənclik dövründə aşkarlanır. Hətta 40 yaşlarında da özünü büruzə verən genetik xəstəlik mövcuddur. Prenatal diaqnostikada dölün xəstə olduğu aşkarlananda tibbi əsas və valideynlərin razılığı ilə hamiləlik yarımçıq dayandırıla bilər».

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, vətəndaş cəmiyyəti nümayəndələrinin, tibb mütəxəssislərinin, hüquqşünasların və ekspertlərin fikirləri dinlənilib.


MONTEFAR
Montelukast natrium 4/5/10 mq
Gündə 1 dəfə
●Ağ ciyərin funksiyasını yaxşılaşdırır
●Residivlərin tezliyini aşağı salır
●Həyat keyfiyyətini yaxşılaşdırır
●Bronxial astmanın proqressivləşməsinin və onun ağır formalarının inkişafının qarşısını alır
Sərbəst tənəffüsün yeni zəmanəti!
HB Co LTD
Biofarma


DESLORADIN
ANTİHİSTAMİN ANTİALLERGİK İLTİHABƏLEYHİNƏ
Allergiyaya yeni cavab!
Səbəbdən asılı olmayaraq bütün növ allergiyalarda təsir göstərməsi
Allergiyanın bütün mərhələlərində yüksək effektivlik
Təsirin tez başlanması (30 dəq. müd.)
Rahat qəbul qaydası: gündə 1 dəfə
ANTIHISTAMINIC
DESLORADIN
Syrup
150 ml
DESLORADİN 5
20 FILM COATED TABLETS
HB Co LTD
Biofarma


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az